# Zəmanət

Nübar Eldarqızı (Fərəcova Nübar Eldar qızı) Sabirabad rayonunun Axtaçı kəndində doğulub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Mədəni-maarif fakültəsini 1989-cu ildə bitirib. Hazırda Sabirabad rayonunun Şıxsalahlı kəndinin kitabxanasında işləyir. Mənəvi mühiti kitabxana, mədəni-maarif işi ilə bağlıdır.




Nübar Eldarqızı ilk gəncliyindən ədəbi yaradıcılıqla bağlıdır. Şeirləri "Azərbaycan", "Ulduz", "Gənclik" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə, "525-ci qəzet"də və "Kredo" qəzetində mütəmadi olaraq nəşr olunub. Onun ilk kitabı "Məni sevməsəniz" 2003-cü ildə işıq üzü görüb. Həm dövrü mətbuatda nəşr olunan yazıları, həm də kitabı haqqında ədəbi mühitin nüfuzlu söz adamları rəylər bildiriblər. Filologiya elmləri doktoru, professor Vaqif Yusifli "Yollar hara aparır" və "Qayıdış" adlı yazılarında Nübar Eldarqızının yaradıcılığını əhatəli tədqiq etmiş, çox nikbin fikirlər söyləmişdir. Sonralar "Bu şəkil ona bənzəyir" adlı xülasədə də Nübar Eldarqızının yaradıcılığına xüsusi yer ayırmışdır. Bundan başqa şair, ədəbiyyatşünas Sərvaz Hüseynoğlu, şair Sabir Sarvan və başqalarının da Nübar Eldarqızının yaradıcılığı ilə bağlı qeydlərini yada salmaq olar.

Nübar Eldarqızı "Kredo" qəzetinin də fəal müəlliflərindən biridir. Onun "Letargiya yuxusu" (2021) adlı kitabında toplanan şeirləri "Kredo" qəzetində oxuculara çatdırılıb. Onun dəyərli yaradıcılığını təhlil edən "Hər ulduzun öz işığı" və "Şairin ruhuna yağan qar" adlı yazılarında poetik obrazlarına işıq tutmağa çalışmışam.

Nübar Eldarqızının poetik ruhunu göstərən misralarına diqqət edək.

Oxu! - Dərdlərinin mirzəsi olum,
Sökülən qəlbinin dərzisi olum;
Düşmənin, düşmənim! Gürzəsi olum!
... Sənin də dağın var, mənim də yaram.

Yaxud,

Nə oldu, ay dərdiş, yaman boğuldun,
Qosqoca dünyanın başı çiynində.
Sənə nə olmuşdu, şair doğuldun,
İndi gəl cənazə daşı çiynində.

Heç bir izahat vermədən bu poetik parçalarda görünən obrazlar üzərində düşünəndə təəccübümü gizlədə bilmədim; Nübar Eldarqızı indiyə qədər niyə Yazıçılar Birlinin üzvü deyil?

İki şeir, bir publisistik portret kitabının ədəbi istedadı mühitimiz tərəfindən qədərincə qəbul olunur. Bütün bunları nəzərə alıb Nübar Eldarqızının Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul olunmasına zəmanət verirəm.

**Əli Rza Xələfli**
**(Əzizli Əlirza Zal oğlu)**
**"Kredo" qəzetinin baş redaktoru,**
**şair-publisist.**
**03.02.2022**

Kredo.-2022.-9 fevral.-S.4.